# AZƏRBAYCAN DİLİ FƏNNİNİN TƏDRİSİ METODİKASI

**Modul** : İxtisas sahəsi üzrə

**Proqramın adı:** Azərbaycan dili fənninin tədrisi metodikası

**Dinləyici kateqoriyası:** Azərbaycan dili və ədəbiyyat müəllimləri

**Həyata keçirilmə forması:** Əyani

**Təlim saatlarının miqdarı:** 48 saat

**Təhsil kreditlərinin sayı:** 8

## İzahat vərəqi

**Proqramın aktuallığı.** 2013-cü ildən etibarən Azərbaycan dili fənni təhsilin qarşısında duran müasir tələblərə uyğun olaraq nəticəyönümlü standartlar əsasında tədris edilməyə başlamışdır. Bu tələbdən çıxış edərək fənnin məzmununa daxil edilmiş yeni mövzular üzrə nəzəri və praktik baza fənn kurikulumunun təkmilləşdirilməsini zəruri edir və bu da dərsliklərin yenidən yazılması ilə nəticələnməkdədir. Fənn kurikulumundakı dəyişikliklər müəllimlərin ixtisas sahəsi üzrə bilik və bacarıqlarının da təkmilləşdirilməsini şərtləndirir.

Obyektiv və subyektiv səbəblərlə bağlı olaraq müəllimlərin tədris fənləri üzrə bilik və bacarıqlarının formalaşdırılmasında çətinliklər müşahidə edilir. 2023-cü il ərzində ümumtəhsil məktəblərində aparılan keyfiyyət monitorinqlərinin hesabatlarına əsasən, Azərbaycan dili fənninin tədrisi üzrə gözə çarpan mühüm problemlər qeydə alınır. Hesabatlara əsasən, ümumi orta təhsil səviyyəsində Azərbaycan dili dərslərində şagirdlərin nəzərdə tutulan məzmun standartları üzrə nümayiş etdirdikləri bilik və bacarıqlarının səviyyəsi qeyri-kafidir. “Şagirdlər bəzən fikirlərini ifadə etmək üçün müəllimin dəstəyinə ehtiyac duyur və özlərinə kifayət qədər güvənmir, öz fikirlərini sadə formada əsaslandırmağı, əsasən, bacarırlar, lakin öyrənmə prosesində kifayət qədər tənqidi düşüncə və problem həlletmə bacarıqlarını nümayiş etdirməkdə çətinlik çəkirlər”. “Ümumi orta təhsil səviyyəsində müşahidə olunan dərslərdə şagirdlər öyrəndiklərini digər fənlərlə və real həyatla əlaqələndirə bilmirlər”. Ümumi orta təhsil səviyyəsində Azərbaycan dili fənni üzrə dərslərdə öyrətmənin keyfiyyəti, əsasən, qeyri-kafi qiymətləndirilmişdir.

Monitorinq zamanı üzə çıxan əsas problem tədrisin kommunikativ metodun formal xarakter daşımasıdır. Bunu nəzərə alaraq ümumtəhsil məktəblərində keçirilən keyfiyyət monitorinqinin nəticələri üzrə hesabatlarda məktəblərə verilən əsas tövsiyələr

“şagirdlərdə öyrənmə bacarıqlarını formalaşdırmaq və təkmilləşdirmək üçün şəraitin yaradılmasıdır ki (özünüqiymətləndirmə, əməkdaşlıq, ünsiyyət, tənqidi düşüncə, yaradıcı düşünmə, problem həlletmə, öyrəndiklərini digər fənlərlə və real həyatla əlaqələndirmək bacarıqları)”, bunlar da, ilk növbədə, Azərbaycan dili fənninin vəzifələrinə daxildir. Bu tövsiyələrdə Azərbaycan dili fənninin tədris dili fənni olaraq metakoqnitiv xarakteri diqqətdə saxlanılmışdır.

Fənnin tədrisi üzrə çatışmazlıqlar yalnız müəllimlərin səriştələrinin qənaətbəxş olmaması səbəbi ilə bağlamaq məsələyə birtrəfli yanaşma olar. Problemi əsaslı şəkildə öyrənmək üçün tədris vəsaitləri, nümunə və ya dəstək məqsədilə müəllimlərə verilən qiymətləndirmə vasitələrinə baxmaq da vacibdir. Azərbaycan dili dərsliklərində ümumiləşdirici dərs, KSQ nümunələri də tədrsin keyfiyyətini kafi qiymətləndirməkdən yuxarı keçməyə imkan vermir. Bu halda istifadə etdikləri tədris materiallarını dəyərləndirə bilmələri üçün müəllimlərin tənqidi bacarıqlarının artırılması da şərtdir.

Yuxarıda göstərilən problemlər nəzərə alınaraq təkmilləşdirilmiş Azərbaycan dili kurikulumu əsasında müəllimlərin, həmçinin fənn üzrə mütəxəssislərin nəzəri bilik və tədris-təlim bacarıqlarının artırılması günün tələbi kimi qiymətləndirilir.

**Proqramın <u>məqsədi</u>** Azərbaycan dili fənnini orta və tam orta təhsil səviyyəsində tədris edən müəllimlərin, metodistlərin, fənn üzrə digər mütəxəssislərin elmi-nəzəri bazasını və metodik bacarıqlarını artırmaqdır.

**Proqramın qarşısında duran <u>vəzifələr</u>:**

- Müəllimlərin Azərbaycan dili fənni üzrə təkmilləşdirilmiş kurikulumla işləmək bacarıqlarını formalaşdırmaq;
- Dərslik komplekti ilə işləmək bacarıqlarını inkişaf etdirmək;
- Fənnin tədrisinə və metodik məsələlərə yaradıcı yanaşmalarını dəstəkləmək;
- Fənnin kommunikativ metodla tədrisinə istiqamətləndirməkdir.

**Proqramı dinləyən müdavimlər aşağıdakı <u>təlim nəticələrinə</u> nail olacaqlar:**

- Azərbaycan dili fənninin tədrsi metodikası ilə bağlı müasir yanaşmaları və prinsipləri izah edir;
- Fənnin məzmununu şərh edir;
- Nəzərdə tutulan təlim nəticələrini və formalaşdırılacaq bacarıqları şərh edir;
- Metodologiya ilə bağlı anlayışları izah edir və fənnin tədrisində əsas metodlar haqqında biliklərini nümayiş etdirir;

- Dinləyib anlama və danışma məzmun xəttində nəzərdə tutulan bacarıqları şərh edir, bu bacarıqları formalaşdıracaq təlim metodları və texnikalarını müəyyənləşdirir;
- Oxu məzmun xətti üzrə standartları və təlim nəticələrini şərh edir, nəzərdə tutulan bacarıqların formalaşdırılması üçün təlim metodlarını və texnikaları müəyyənləşdirir;
- Şagirdlərin yazı bacarığının formalaşdırılması üsul və texnikarlarını müəyyənləşdirir və tətbiq edir;
- Dil qaydalarının tədrisi metodikası və texnikasını tətbiq edir;
- Azərbaycan dili dərsinin prespektiv və cari planlaşdırmasının əsas prinsiplərini izah edir və planlaşdırmaya dair nümunələr hazırlayır;
- Dərsliklərlə yanaşı əlavə resurslardan istifadə edərək təlim məqsədlərinə uyğun tapşırıqlar hazırlayır;
- Qiymətləndirmə vasitələrinin hazırlanması prinsiplərini izah edir, qiymətləndirmə üsul və vasitələri hazırlayır.

**Proqramın əsas anlayışları:**

Səriştəyönümlü kurikulum

Metod və metodika

Dilin tədrisində səmərəli metodlar

Qrammatik metod

Kommunikativ metod

Nitq bacarıqları

Diferensiallıq

Nailiyyət səviyyələri

Şagird nailiyyətlərinin qiymətləndirilməsi

Qiymətləndirmə meyarları

**Proqramın strukturu:** Proqram əsas üç hissədən və informativ aparatdan ibarədir:

1. **İzahat vərəqi**: Proqramın aktuallığı əsaslandırılmış, məqsəd və vəzifələri açıqlanmış, təlim nəticələri və proqramın məzmununun ehtiva etdiyi anlayışlar təqdim edilmişdir.
2. **Tədris planı:** Proqramın əsas və alt mövzuları, hər bir mövzu üzrə təlim nəticələri, dərslərin aparılmasında əsas strategiyalar, qiymətləndirmə üsul və vasitələr, mövzuların tədris müddətini əks etdirir.

3. **Mövzular üzrə dərslərin təsviri:** Əsas mövzulara daxil olan alt mövzular üzrə təlim prosesinin alqoritmini ehtiva edir.

4. **Ədəbiyyat siyahısında** proqramın hazırlanmasında istifadə olunmuş mənbələr göstərilmişdir.

5. **Qiymətləndirmə mexanizmi:** Proqramın həyata keçirilməsi zamanı istifadə ediləcək qiymətləndirmə sistemi modelləşdirilmişdir.

**Tədris planı**

| | **Əsas mövzular** | **Alt mövzular** | **Təlim nəticələri** | **Təlim strategiyaları, üsul və vasitələri** | **Qiymətləndirmə üsul və vasitələri** | **Saat** |
|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan dili fənninin tədrsinin metodoloji əsasları | Kurikulumun təkmilləşdirilməsini tələb edən amillər<br><br>Azərbaycan dili fənnin məqsəd və vəzifələri<br><br>Azərbaycan dili fənninin məzmununa verilən müasir tələblər<br><br>Standartlar: dəyişikliklər və onları zəruri edən tələblər | Azərbaycan dili fənninin kurikulumunda dəyişikliklər və onların səbəblərini izah edir.<br><br>Azərbaycan dili fənni üzrə dərslik komplekti ilə tanışlığını nümayiş etdirir.<br><br>Vəsaitlərin strukturunu izah edir.<br><br>Dərsin əsas struktur elementlərini sadalayır.<br><br>Fənnin məzmunununun iki əsas aspektini (dil və nitq) fərqləndirir və onların məzmunu ilə bağlı ümumi biliklərini nümayiş etdirir.<br><br>Standartlardakı dəyişiklikləri şərh edir. | Qrup işi: Kurikulumların müqayisəli təhlili<br><br>Müzakirə<br><br>Qrup işi: dərslik komplektinin strukturunun təhlili<br><br>Müzakirə | Diaqnostik qiymətləndirmə<br><br>Sual-cavab | 4 |
| 2 | Dil fənninin tədrisi metodları | Metod və metodika nədir<br>Dilin tədrisi metodlarının klassifikasiyası (Qramamtik metod<br>Kommunikativ metod<br>Struktur yanaşması<br>Ümumi fiziki cavab<br>Tapşırıq əsaslı öyrənmə<br>Təbii yanaşma<br>Audio-linqvik<br>Birbaşa metod)<br>Azərbaycan dili fənnin tədrisində əsas metodlar: | Metod və metodika anlayışlarını izah edir.<br><br>Dilin tədrisi metodları ilə bağlı biliyini nümayiş etdirir.<br><br>Azərnbaycan dili fənnin tədrisində əsas metodları sadalayır.<br><br>Metodlar haqqında biliyini nümayiş etdirir.<br><br>Dərsin məzmununa uyğun metodları seçir. | Keyslər: situasiyalar əsasında metodların müəyyənləşdirilməsi<br><br>Dərs təqdimatı | Tapşırıqvermə | 4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | Qrammatik metod<br>Kommunikativ metod<br>Nitq bacarıqları (dinləmə. danışma, oxu, yazı) | | | | |
| 3 | Azərbaycan dili fənninin tədrisinin planlaşdırılması | Fənn proqramı<br>Perspektiv planlaşdırma<br>Cari planlaşdırma | Fənn proqramı ilə tanışlığını nümayiş etdirir.<br><br>Fənnin tədrisində kommunikativ metodu nəzərə alaraq perspektiv və cari plan hazırlayır. | Qrup işi:<br>Nümunələr üzərində iş<br><br>Müzakirə<br><br>Dərs təqdimatı | Təqdimat<br><br>Özünüqiymətləndirmə | 4 |
| 4 | Şagirdlərin şifahi nitqinin formalaşdırılması metodikası | Dinləyib-anlama və danışma məzmun xətti üzrə standartlar<br><br>Məzmun xətti üzrə əsas fəaliyyətlər<br><br>Tapşırıq modelləri<br><br>Məzmun xətti üzrə qiymətləndirmənin aparılması | Azərbaycan dili fənninin Dinləyib-danışma məzmun xətləri üzrə standartları təhlil edir.<br><br>Dinləyib-danışma məzmun xətti üzrə fəaliyyətlərin dərsin strukturunda yerini müəyynləşdirir.<br><br>Şagirdlərin dinləyib-danışma bacarıqlarını inkişaf etdirən üsulları tətbiq edir.<br><br>Diaqnostik və formativ qiymətləndirmədə məzmun xətti üzrə bilik və bavarıqları yoxlayır.<br><br>Məzmun xətti üzrə nümunəvi dərs təqdim edir. | Test<br><br>BİBÖ<br><br>Rubrik<br><br>Dərs təqdimatı | Diaqnostik qiymətləndirmə<br><br>Təqdimat | 6 |
| 5 | Oxu təliminin təşkili | Oxu təliminin əsas istiqamətləri<br><br>Oxu təlimində səmərəli üsullar<br><br>Tapşırıq modelləri<br><br>Təlimin diferensial təşkili<br><br>Məzmun xətti üzrə qiymətləndirmənin aparılması | Oxu məzmun xətti üzrə standartları şərh edir.<br><br>Şagirdlərin söz bazasının formalaşdırılması üçün optimal üsulları seçir.<br><br>Oxuyub-anlama bacarıqalrını formalaşdıran tapşırıqlar hazırlayır. | İNSERT<br><br>İkihissəli və üçhissəli gündəlik<br><br>Rubrik<br><br>Dərs təqdimatı | Diaqnostik qiymətləndirmə<br><br>Təqdimat | 6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | Mətnlərin təhlil və dəyərləndirilməsi üzrə tapşırıqlar hazırlayır.<br><br>Mətnə yaradıcı yanaşma bacarığını formalaşdıran tapşırıqlar hazırlayır.<br><br>Diaqnostik və formativ qiymətləndirmədə məzmun xəttini nəzərə alır.<br><br>Oxu təlimi üzrə nümunəvi dərs təqdim edir. | | | |
| 6 | Yazı işlərinin aparılması | Yazı növlərinin səciyyələndirilməsi<br><br>Yazı işlərinin aparılmasında səmərəli üsullar<br><br>Yazı tapşırığı modelləri<br><br>Təlimin diferensial təşkili<br><br>Yazı növləri üzrə qiymətləndirmə meyarları<br><br>Məzmun xətti üzrə qiymətləndirmənin aparılması | Dərsin strukturunda yazı işlərinin yeri və rolunu izah edir.<br><br>Şagirdin yazılı nitqinin formalaşmasında hər bir yazı növünün funksiyasını izah edir.<br><br>Yazı işlərinin aparılmasında təlim forması və üsullar seçir.<br>Yazı işlərinin yoxlanmasında müxtəlif üsullardan istifadə edir.<br><br>Yazı işlərinin qiymətləndirmə meyarlarını hazırlayır. | MİNN üsulu<br><br>Sinkveyn<br><br>RAFT üsulu<br><br>Qrupla iş: Esse nümunələri üzərində iş<br><br>Freytaq piramidası modelləri<br><br>Hayku<br><br>Qrupla iş: Rubriklərin hazırlanması<br><br>Dərs təqdimatı | Özünüqiymətləndirmə vərəqi<br><br>Qiymətləndirmə meyarları əsasında esselərin yoxlanması<br><br>Qiymətləndirmə meyarları əsasında hekayələrin dəyərləndirilməsi<br><br>Təqdimat | 6 |
| 7 | Dil qaydalarının tədrisi metodikası | Azərbaycan dili qaydalarının tədrisində səmərəli metodlar<br><br>Dil qaydalarının öyrədilməsində səmərəli üsullar<br><br>Təlimin diferensial təşkili<br><br>Məzmun xətti üzrə qiymətləndirmənin aparılması | Dil qaydalarının müasir Azərbaycan dili fənnində yeri və rolunu izah edir.<br><br>Dil qaydaları standartlarında mövzuların inkişaf dinamikasını şərh edir.<br><br>Dil qaydalarının tədrsində səmərəli metod və üsullardan istifadə edir.<br><br>Diaqnostik və formativ qiymətləndirmədə məzmun xəttini nəzərə alır. | Müzakirə<br><br>Qrup işi: İş vərəqləri vasitəsilə bilik və bacarıqların inkişaf dinamikasının izlənilməsi<br><br>Qrup işi: Tapşırıqlara uyğun üsul və alqoriymlərin müəyyənləşdirilməsi<br><br>Dərs təqdimatı | Tapşırıqvermə<br><br>Təqdimat<br><br>Qiymətləndirmə rubriki | 6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | Qiymətləndirmə üçün müvafiq tapşırıqlar hazırlayır. | | | |
| 8 | Ümumiləşdirici dərslərin təşkili, summativ qiymətləndirmələrin aparılması | Ümumiləşdirici dərs nədir<br><br>Summativ qiymətləndirmələrə verilən əsas tələblər | Ümumiləşdirici dərslərin aparılmasında bölmə üzrə təlim nəticələrini nəzərə alır.<br><br>Kiçik summativ qiymətləndirmə vasitələrini hazırlayarkən bölmə üzrə təlim nəticələrini nəzərə alır.<br><br>Summativ qiymətləndirmə vasitələrinin hazırlayarkən şagird nailiyyətlərinin səviyyələrini nəzərə alır.<br><br>Böyük summativ qiymətləndirmə vasitəsinin hazırlanmasında müvafiq təlim nəticələrini seçir.<br><br>Qiymətləndirmə vasitələrinə uyğun meyarlar hazırlayır. | Müzakirə<br><br>Qrup işi: Test nümunələrinin hazırlanması<br><br>İş vərəqləri: test tapşırığının hazırlanması<br><br>İş vərəqi: tapşırıqların yoxlanması meyarlarının yazılması | Özünüqiymətləndirmə vərəqi<br><br>Tapşırıqvermə | 6 |
| 8 | Yekun refleksiya | | Dərs nümunələrinin təqdimatı və müzakirəsi | Qiymətləndirmə rubriki | Təqdimat | 6 |

Cəmi: 48 saat

## MÖVZULAR ÜZRƏ TƏLİMİN TƏSVİRİ

## MÖVZU 1. AZƏRBAYCAN DILI FƏNNININ TƏDRSININ METODOLOJI ƏSASLARI

### 1.1. Kurikulumun təkmilləşdirilməsini tələb edən amillər

Azərbaycan dili fənni üzrə mövcud kurikulumla təkmilləşdirilmiş kurikulumun məzmunu müqayisəli şəkildə şərh edilir, kurikulumun təkmilləşdirilməsini şərtləndirən amillər izah edilir. Yeni kurikulumun strukturu və məzmunu təhlil edilir və əldə edilən qənaətlər ümumiləşdirilir.

### 1.2. Azərbaycan dili fənnin məqsəd və vəzifələri

Azərbaycan dili fənninin məqsəd və vəzifələri mövcud və təkmilləşdirilmiş kurikulumlar əsasından nəzərdən keçirilir. Oxşar və fərqli məqamlar üzə çıxarılaraq dəyişikliklərin mahiyyəti şərh edilir. Mövzunun tədrisi müzakirə formasında aparılaraq

iştirakçıların yanaşmaları dinlənilir və müvafiq nəticələrin çıxarılması üçün istiqamətləndirilir.

**1.3. Azərbaycan dili fənninin tədrisinə verilən müasir tələblər**

Azərbaycan dili fənninin tədrisinə konseptual yanaşmalar nəzərdən keçirilir və təlimin aparılmasında qrammatik metoddan kommunikativ metoda keçidin səbəbləri şərh edilir. Dil qaydalarının düzgün, rabitəli və səlis nitqin formalaşdırılmasında rolu izah edilir, nitq bacarıqları əlaqələndirməklə ünsiyyət prosesi modelləşdirilərək şərh olunur.

**1.4. Standartlar: dəyişikliklər və onları zəruri edən tələblər**

Azərbaycan dili fənni üzrə mövcud kurikulumda əksini tapan məzmun standartları ilə təkmilləşdirilmiş kurikuluma daxil edilmiş ümumi təlim nəticələri, siniflər üzrə məzmun standartları müqayisəli şəkildə nəzərdən keçirilir. Müzakirələrin nəticəsi olaraq dəyişikliklərin səviyyəsi müəyyənləşdirilir.

## MÖVZU 2: DİL FƏNNİNN TƏDRİSİ METODLARI

### 2.1. Metod və metodika nədir

Metod anlayışı izah olunur. Metodikanın əsas anlayışları (metod, üsul, texnika) fərqləndirilir. Dilin tədrsində əsas metodlar (strukturəsaslı, funksional, interaktiv) fərqləndirilir. Metodologiya tədris prosesinin təşkili sistemi olaraq izah edilir.

### 2.2. Dilin tədrisində kommunikativ metod

Ümumi təhsil məktəblərində Azərbaycan dili kurikulumunun əsas dəyişikliyi kommunikativ yanaşmanın təsdiqi ilə bağlıdır. Proqram ritorika, mətnşünaslıq sahələrinə aid “mətn”, “nitq”, “mətn tipləri”, “mətnin məqsədi”, “mətnin üslubu” və s. kimi olan bir çox əsas terminləri ehtiva edir ki , bunlar da Azərbaycan dili fənninin tədrisində kommunikativ hədəfin artırılmasını şərtləndirir. Mövzunun tədrisində iştirakçılar dil dərslərinin tədrsində ən optimal metodlarla tanış olacaq, kommunikativ metodun əhəmiyyətini dərk edərək öz təlimlərində tətbiqinə yiyələnəcəklər.

### 2.4. Azərbaycan dili fənninin məzmununda nitq vahidləri ilə işin təşkili

Mövzu üzrə dərsin məqsədi dörd makrobacarıq – dinləmə, oxu, yazı və dil qaydalarından istifadə əsasında fənnin tədrisinin praktik metodlarına və bu metodlarla dərsin təşkilnə diqqət çəkməkdir. Məzmun xətləri üzrə bilik və bacarıqların ümumi şəkildə nəzərdən keçirilməsi, onların formalaşdırılmasında tələb olunan metod və üsulların seçilməsi yollarına nəzər salınır. Mövzunun tədrisində anlayışların klassifikasiyası aparılmaqla fənnin məzmunu haqqında sistemli təsəvvürün formalaşdırılması nəzərdə tutulur.

## MÖVZU 3: AZƏRBAYCAN DİLİ FƏNNİNİN TƏDRİSİNİN PLANLAŞDIRILMASI

### 3.1. Perspektiv planlaşdırma

Mövzunun tədrisində planlaşdırmanın əhəmiyyəti, planlaşdırmaya müasir yanaşma və planlaşdırmanın növləri və onların təşkili qaydaları izah olunur. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü əsasında perspektiv planın hazırlanması üzrə nümunələr nəzərdən keçirilərək təhlil olunur. Diqqət verilən əsas məsələ planda məzmun standartlarının paylanmasının mahiyyətini izah etmək və müəllimin dərs dediyi sinfin nailiyyət səviyyəsinə görə müstəqil plan hazırlama bacarığının formalaşdırılmasıdır. Məzmun standartıarının reallaşdırılması cədvəlləri üzərində iş aparılır. Qruplarla iş əsasında müxtəlif siniflər üzrə perspektiv plan nümunələri hazırlanır.

### 3.2. Cari planlaşdırma

Mövzunun tədrisindən öncə təlim iştirakçılarının cari planlaşdırma üzrə ilkin bilik və bacarıqları yoxlanılır. Onların təlim ehtiyacları öyrənildikdən sonra müvafiq nəzəri və praktik dəstək göstərilir. Diqqət göstərilən məsələ təlim məqsədi, təlim nəticəsi anlayışlarının mənimsənilməsi, onların formalaşdırılmasıdır; tapşırıqların, təlim üsullarının təlim məqsədlərinə uyğunluğunun təmin edilməsidir; qiymətləndirmə meyarlarını yaza bilmək bacarıqlarının formalaşdırılmasıdır.

Cütlərlə iş formasında nümunələr hazırlamaq tapşırığı verilir. Təqdim edilən nümunələr müzakirələr nəticəsində təkmilləşdirilir.

### 3.3. Təlimdə diferensial yanaşma

Mövzu üzrə dərsin təşkili praktik xarakter daşıyır. Məzmun xətləri üzrə tapşırıqların hər bir şagirdin öyrənmə tərzləri, mənimsəmə bacarıqları, nailiyyət səviyyələri nəzərə alınmaqla tapşırıq nümunələri üzrə işlərin aparılması nəzərdə tutulur.

## MÖVZU 4: ŞAGİRDLƏRİN ŞİFAHİ NİTQİNİN FORMALAŞDIRILMASI METODİKASI

### 4.2. Dinləmə və danışma məşğələsinin xüsusiyyətləri

Təlimdə mövcud Azərbaycan dili fənn kurikulumu ilə təkmilləşdirilmiş kurukulum arasında Dinləmə və danışma məzmun xətti üzrə əsas və alt standartlardakı fərqlər və onların yaranması səbəbləri müzakirə olunur.

Mövzu üzrə dərsin aparılması iştirakçılara dinləmə və danışmanın öyrədilməsi üzrə dərslərin səmərəli planlaşdırılması və keçirilməsi üçün əsas nəzəri baza və təcrübə ilə təmin etmək üçün nəzərdə tutulmuşdur. Dərsin izahı əsas kateqoriyalardan başlayır. İlk məsələ dinləmə və danışmanın nitq fəaliyyətinin passiv növləri olmadığını izah etməkdir. Dinləyicinin beyni məlumatı qavramaq və emal etmək üçün daim fəal işləyir və

bu işi şübhəsiz ki, passiv adlandırmaq olmaz. Dinləmə reseptiv, danışma isə ekspressiv nitq bacarığı olsa da, müzakirə, debat, dialoq kimi fəaliyyətlərdə bu iki bacarıq bir-birindən ayrılmaz şəkildə baş verir. Şagird çox zaman dinləyib anladığını danışmaqla nümayiş etdirir. Bu baxımdan dinləmə və danışmanın vahid məzmun xəttində birləşməsinin təbii olması izah olunur.

Növbəti məsələ dinləmənin əsas xüsusiyyətlərinin nəzərdən keçirilməsidir: bu mərhələdə informasiyanın əldə edilməsi yolları izah edilir.

**4.2. Məzmun xətti üzrə əsas fəaliyyətlər**

Təkmilləşdirilmiş Azərbaycan dili kurikulumda dinləyib-anlama və danışma fəaliyyəti aşağıdakı istiqamətlərdə müəyyənləşdirilmişdir:

1.1. Dinləyib- anlama

1.2. Dialoji nitq

1.3. Rabitəli nitq

1.4. Ədəbi dil normalarına uyğunluq və ekspressiv nitq.

Bu istiqamətlər nəzərə alınmaqla mövzu üzrə təlimin məzmunu aşağıdakı kimi ümumiləşdirilir:

- Dinlənilən mətnin məzmunu ilə bağlı şagirdlərin mövcud biliklərini aktivləşdirən tapşırıqların verilməsi;
- Mətni dinləmədən öncə onun növü və veriləcək tapşırıqlarla bağlı ehtimalların nəzərdən keçirilməsi;
- Mətnin bir neçə dəfə dinlənilməsi: hər dəfə ümumidən xüsusiyə doğru müxtəlif tapşırıqların verilməsi;
- Şagirdlərin dinləyib-anlama bacarıqlarını yoxladıqdan sonra digər nitq fəaliyyətləri (danışma, oxu, yazı, dil qaydalarından istifadə) ilə bağlı inteqrativ tapşırıqların işlənməsi.

**4.3. Tapşırıq modelləri və təlim üsulları**

Təlimdə tipik tapşırıq modellərinin tətbiqi həyata keçirilərkən dinləmə fəaliyyətinin mərhələləri nəzərə alınır:

- Dinləmədən öncə tipik tapşırıqlar;
- Mətn üzrə tipik tapşırıqlar:

    Məzmunun ümumi qavranılması üzrə tipik tapşırıqlar;

    Dərin anlama üzrə tapşırıqlar.

    Spesifik tapşırıqlar;

- Dinləyib-anlamadan sonrakı tipik tapşırıqlar (rollu oyun, dialoqların səsli oxusu, müsahibə, informasiyaların şərhi, dinləmə mətni ilə əlaqəli oxu və ya yazı, mövzunun müzakirəsi, audiomətn əsasında qrammatik tapşırıqlar, audiomətnin mümkün ardının müzakirəsi).

Dinləyib-anlama məzmun xətti ilə bağlı bacarıqları inkişaf etdirmək üçün bu üsullardan istifadə olunması faydalı hesab edilir: informasiya boşluqları ; "Məndən sonra de"; "Səhvimi düzəlt"; yarımçıq hekayə; zəncirli hekayə və s. Danışma fəaliyyəti ilə bağlı isə növbəti üsullardan istifadə etmək olar: sinektika, debat, dollu oyun, simulyasiya, təqdimat və s.. Təlimdə üsullar nəzərə alınaraq tapşırıqlar üzərində fəaliyyətlər aparılır.

Tapşırıqlar üzərində işləyərkən dərsliklərdəki tapşırıqlardan nümunə kimi istifadə edilir və metodik vəsaitdə tapşırıqların izahı təhlilə cəlb edilir. Qruplarla iş formasında müxtəif model tapşırıqların hazırlanır və təqdim edilir.

Dərs prosesində diqqət edilən əsas məsələ dinləmə prosesinin praktik təşkili və onun dəyərləndirilməsidir.

### 4.4. Məzmun xətti üzrə formativ qiymətləndirmənin aparılması

Mövzu üzrə dərsin təşkili praktik xarakter daşıyır. Təlimdə diferensial yanaşma nəzərə alınaraq qiymətləndirmə vasitələrinin hazırlanması üzrə işin təşkili nəzərdə tutulur. Təlimə diferensial yanaşma nəzərə alınaraq şagirdlərin öyrənmə tərzləri, mənimsəmə və nailiyyət səviyyələri üzrə tapşırıqların hazırlanması, qiymətləndirmə üsul və vasitələrindən istifadə, meyarların yazılması və əks əlaqənin yaradılması dərsin əsas fəaliyyətləridir. Diqqət edilən məsələlərdən biri də müşahidənin aparılması və əks əlaqənin qurulması yollarının nəzərdən keçirilməsidir.

## MÖVZU 5: OXU TƏLİMİNİN TƏŞKİLİ

### 5.1. Oxu təliminin əsas xüsusiyyətləri və istiqamətləri

Oxu təliminin sistemi tapşırıq-vərdiş-material zənciri əsasında izah olunur. Bir sıra mətndənöncəki fəaliyyətlər:

- Mövcud biliklərindən istifadə,
- Mətnin məzmununun təxmin edilməsi;
- Uyğun oxu strategiyasının seçilməsi tapşırıqlarını ehtiva edərək aşağıdakı bacarıqları formalaşdırır:
- Mətnin məzmununu proqnozlaşdırma və ehtimaletmə;
- Qaçaraq oxu: mətnin əsas mündəricatını müəyyənləşdirir;

- Şüurlü oxu: xüsusi məlumatların axtarılması məqsədi ilə oxu bacarığını formalaşdırır;
- Leksik təxminlər isə (kontentdən mənanın çıxarılması) idraki mahiyyət kəsb edir.

Bu bacarıqları formalaşdırmaq üçün aşağıdakı xüsusiyyətləri ehtiva edən materialların seçilməsi tövsiyə olunur:

- şagirdlərin maraq dairələrinə uyğun mövzular;
- şagirdlərin öyrənmə qabiliyyətlərinə uyğun səviyyədə mətnlər;
- autentik (orijinal) mətnlər.

Təlim prosesində izahlar dərsliklərdəki tapşırıq nümunələri ilə müşaiyət olunur və müzakirə edilir.

### 5.2. Tapşırıq modelləri və təlim üsulları

Təlimin əvvəlində iştirakçılar Azərbaycan dili fənninin tədrisi məqsədi ilə seçilən tipik oxu materialları ilə tanış edilirlər:

**Autentik:** qəzetlər və jurnallar, teatr və ya sirk tamaşaları proqramları, restoran menyuları, reklam broşürləri və vərəqələri, qiymət siyahıları, qəzet elanları, oxşar internet materialları, televiziya proqramları, ana dilində yazılmış məktublar.

**Hazırlanmış:** oxumaq üçün uyğunlaşdırılmış mətnlər, bu və ya digər dil məsələlərini tətbiq etmək məqsədilə hazırlanmış mətnlər.

Oxudan əvvəl tipik tapşırıqlar:

• Birinci və ikinci səviyyələr: mövzu haqqında məlumatlılıq səviyyəsinin yoxlanması; verilmiş mövzu üçün leksik xəritənin yaradılması; mətndəki açar sözlərin mənasını tapmaq üçün lüğət üzrə iş, sözlərin kateqoriyalara ayrılması; mətndəki illüstrasiyaların nəzərdən keçirilmsi və müzakirəsi; mətnin başlıqları, arxitektonikasını (tərtibatını), illüstrasiyalarını müzakirə etmək, mətnin məzmunu ilə bağlı proqnozlar vermək.

• Üçüncü və dördüncü səviyyələr: yuxarıda sadalanan iş növləri + oxu materialının ehtimal olunan məzmununa uyğun suallar hazırlamaq; mətnin mövzusu üzrə öncədən qısa esse yazmaq.

**Tipik mətn tapşırıqları:**

Mətndən xüsusi məlumatların müəyyənləşdirilməsi;

Mətnin oxusu və şagirdin yoldaşına danışması;

Mətnin hissələrlə oxusu;

Mətnlə illüstrasiyalar arasında uyğunluğun tapılması;

Mətndəki yeni sözlər üzrə leksik oyunlar;

Mətndə cümlənin tamamlanması;

Mətndə cümlələrin məntiqi ardıcıllıqla düzülməsi;

Mətnə uyğun xüsusi sualların yazılması və yoldaşa ünvanlanması;

Oxunmuş materialın konspektinin hazırlanması;

Mətnin məzmununun qrafik təsvirlərdə əks etdirilməsi.

**Oxudan sonrakı tipik tapşırıqlar:**

Mətnin ardını tamamlamaq;

Mətni parafrazla (öz sözləri ilə) yazmaq;

Mətnin müzakirəsi;

Mətnin mövzusuna uyğun materialın dinlənilməsi;

Mətnin finalının alternativini yazmaq;

Mətnin başlanğıcına qədər baş verə biləcəklər haqqında hekayə yazmaq və s..

Oxuyub-anlama bacarığını dəyərləndirmək üçün yazı və danışma fəaliyyəti ilə bağlı üsullar (İnsert, MİNN, ikihissəli gündəlik, sinkveyn, qarışıq cümlələr, ziqzaq, "Cümləni tap", 4N1KH və s.) təcrübədən keçirilir.

### 5.3. Məzmun xətti üzrə formativ qiymətləndirmənin aparılması

Mövzu üzrə dərsin təşkili praktik xarakter daşıyır. Təlimdə diferensial yanaşma nəzərə alınaraq qiymətləndirmə vasitələrinin hazırlanması üzrə işin təşkili nəzərdə tutulur.

## MÖVZU 6: YAZI İŞLƏRİNİN APARILMASI

### 6.1. Yazı növlərinin səciyyələndirilməsi

Mövzu üzrə dərsin qarşısında duran əsas məqsəd Yazı məzmun xətti üzrə nəzərdə tutulan yazı işlərinin müəyyənləşdirilməsi və onların klassifikasiyasının aparılmasıdır.

Təlim zamanı iştirakçıların yazı işləri üzrə mövcud nəzəri bilik və prosesin təşkili üzrə bacarıqlarını yoxlamaq məqsədilə özünüqiymətləndirmə və test vasitəsilə diaqnostik qiymətləndirmə aparılır. İştiakçıların ehtiyaclarına uyğun olaraq nəzəri izahlar verilir.

### 6.3. Yazı tapşırığı modelləri

Təlimin ilk mərhələsində iştirakçıların yazı işlərinin aparılması metodikası ilə bağlı təlim ehtiyaclarını üzə çıxarmaq məqsədilə onlara özünüqiymətləndirmədə iştirak etmək təklif olunur. Sonra isə onlar yazı bacarığı formalaşdırmaq üçün təlim üsulları ilə tanış edilirlər:

İmla, növləri və işin təşkilinin ənənəvi üsulları ilə yanaşı təlimə yaradıcı yanaşma, müasir imla üsulları nəzərdən keçirilir, praktik işlər aparılır.

İfadənin növləri (müfəssəl və müxtəsər) üzrə təlim üsullarının tətbiqi təcrübədən keçirilir.

Yaradıcı yazılar – təsviri, nəqli, informativ və mühakimə xarakterli (arqumentativ və inandırıcı) esselərə verilən tələblərlə tanış olur, öyrəndikləri bilikləri tətbiq edirlər.

Hekayə yaradıcıığının şagirdin nitq bacarıqlarının formalaşmasında rolu izah olunur və bədii yaradıcılığın təşkilinin səmərəli yolları təcrübədən keçirilir.

Təlim iştirakçıları yazı növləri və tapşırıq modellərinin digər səciyyələndirmələri haqqında da məlumatlandırılırlar.

### 6.2. Yazı işlərinin aparılmasında səmərəli üsullar

Yazı işlərinin aparılmasında təlim üsullarının əhəmiyyəti izah olunur. Üsul seçərkən texnikanın verilən tapşırığın şərtinə uyğunluğunu nəzərə almaq bacarığını formalaşdırmaq təlimin əsas diqqət etdiyi məsələdir. Məsələn, mətn əsasında esse yazmaq üçün MİNN, sinkveyn, ikihissəli və ya üçhissəli gündəlik, RAFT üsullarından istifadə etmək üçün bu üsulların funksiyaları izah edilir və yazı prosesində bu texnikaların tətbiqi detallı izlənir. Əldə edilən nəticələr öncədən müəyyənləşdirilmiş meyarlar əsasında yoxlanılır.

Layihə əsasında mətnlərin yazılmasında “6 Şlyapa” metodunun funksiyası izah olunur, tapşırıqlar verilir. Əldə edilən nəticələr müzakirə olunaraq ehtiyac olduğu təqdirdə proses təkmilləşdirilir.

Hekayə yaradıcılığında üçhissəli mətn, Freytaq piramidası təcrübədən keçirilir.

Dərsin sonuncu mərhələsində qruplarla iş formasında üsulların tətbiqi vastəsilə yazı işləri təşkil olunur. Əldə edilən nümunələr təqdim edilib növbəti mövzunun (“Yazı işlərinin qiymətləndirilməsi”) tədrisi prosesində qiymətləndirilir.

### 6.4. Yazı işlərinin qiymətləndirilməsi

Mövzu üzrə dərsin təşkili praktik xarakter daşıyır. Təlimdə diferensial yanaşma nəzərə alınaraq qiymətləndirmə vasitələrinin hazırlanması və qiymətləndimənin aparılması üzrə işin təşkili nəzərdə tutulur. Diqqət edilən mühüm məqamlardan biri meyarların müəyyəbləşdirilməsi və əks əlaqənin yaradılmasıdır. Yazı işinin təşkilində səmərəli üsulların seçilməsi, onların funksiyalarının müəyyənləşdirilməsi də dərsin əsas fəaliyyətləridir.

## MÖVZU 7: DİL QAYDALARININ TƏDRİSİ METODİKASI

### 7.1. Azərbaycan dili qaydalarının tədrisində səmərəli metodlar

Azərbaycan dili fənnin tədrisində ənənəvi olaraq qramamtik metoddan istifadə edilmişdir, hazırda da dil qaydalarının yalnız kommunikativ fəaliyyətlər vasitəsilə öyrədilmədiyini, yəni dil qaydalarının daha kiçik nitq vahidləri (söz, söz birləşmələri, cümlə) əsasında mənimsədilməsi məsələləri nəzərə alınaraq bu məzmun xətti üzrə qrammatik və kommunikativ, həmçinin digər münasib metodların tətbiqinin əhəmiyyəti izah olunur. Metodlar sadalanır və onların rolu haqında məlumat verilir.

Dərsin qarşısında duran əsas vəzifə müəllimlərin metod seçiminə məqsədyönlü yanaşmalarını təmin etməkdir.

**7.2. Dil qaydalarının öyrədilməsində səmərəli üsullar**

Mövzu üzrə dərsin qarşısında duran əsas məqsəd praktik (empirik), nəzəri və tətbiqi (yoxlayıcı) metodlarla dil qaydalarının tədrsi yollarını öyrətməkdir. Nəzərdə tutulan metod və üsullar aşağıdakı kimi qruplaşdırılır:

1. Dilin canlı ünsiyyət prosesində praktik şəkildə mənimsənilməsinə xidmət edən metod və üsullar;
2. Dilin nəzəri cəhətdən öyrənilməsinə xidmət edən metod və üsullar;
3. Dilin nəzəri və praktik cəhətdən öyrənilməsinə xidmət edən metod və üsullar.

**7.3. Təlimin diferensial təşkili və formativ qiymətləndirmənin aparılması**

Mövzu üzrə dərsin təşkili praktik xarakter daşıyır. Təlimdə diferensial yanaşma nəzərə alınaraq qiymətləndirmə vasitələrinin hazırlanması, meyarların yazılması və əks əlaqənin qurulması üzrə işin təşkili nəzərdə tutulur.

**MÖVZU 8: ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏRİN TƏŞKİLİ, SUMMATİV QİYMƏTLƏNDİRMƏLƏRİN APARILMASI**

**8.2. Ümumiləşdirici dərslərin aparılamsı**

Təlimə başlamadan öncə müzakirə vasitəsilə iştirakçıların ümumiləşdirici dərslərin aparılması ilə bağlı təcrübələri öyrənilir. Dərsliklərdə təqdim edilmiş nümunələr və ya müəllimlərin öz materialları nümayiş etdirilərək münasibətlərin bildirilməsinə şərait yaradılır. Bu müzakirə müəllimlərin təlim ehtiyaclarını üzə çıxarır. Tipik səhvlər qeydə alınaraq təlim məqsədləri müəyyənləşdirilir. Müvafiq nəzəri və praktik dəstək göstərilir.

TKTA-nın monitorinq hesabatlarına əsasən, şagirdlərin təfəkküryönümlü fəaliyyətlərdə zəif nəticə göstərmələri amili nəzərə alınaraq mövzunun tədrisində diqqət verilən məsələ ümumiləşdirici dərslərin təşkilində şagirdlərin nailiyyət səviyyələrinin nəzərə alınması, tənqidi və yaradıcı təfəkkürə uyğun tapşırıqların hazırlanması yollarının öyrədilməsidir.

Dərsin sonuncu fəaliyyəti qrupla iş formasında ümumiləşdirici dərs nümunələrinin hazırlanması və təqdimatıdır.

**8.2. Kiçik summativ qiymətləndirmə vasitələrinin hazırlanması**

Təlimdən öncə metodik vəsaitdə, həmçinin müəllimlərə dəstək məqsədilə mütəxəssislər tərəfindən hazırlanmış KSQ nümunələri qruplarla iş formasında təhlil edilir. Aparılan fəaliyyət nəticəsində iştirakçıların təlim ehtiyacları üzə çıxarılır. Təlim ehtiyacları qeydə alınaraq mövzu üzrə təlim məqsədləri müəyyənləşdirilir.

TKTA-nın monitorinq hesabları KSQ vasitələrinin hazırlanması üzrə də tipik təlim ehtiyaclarını müəyyənləşdirməyə imkan verir. Bu istiqamətdə də prioritet məsələ - nailiyyət səviyyələrinə uyğun, xüsusilə təfəkküryönümlü və yaradıcı tapşırıqların hazırlanmasıdır.

Dərsin sonuncu mərhələsində qruplarla iş formasında KSQ nümunələri hazırlanıb təqdim edilir.

**8.3. Böyük summativ qiymətləndirmə vasitələrinin hazırlanması**

BSQ vasitələrinin hazırlanması mövzusunda təlimin təşkili KSQ vasitələrinin hazırlanması məşğələsinin gündəliyindəki ardıcıllıqla həyat keçirilir. BSQ vasitələri müəllimlər tərəfindən hazırlanmasa da, təlimin təşkilində nəzərə alınan məsələ odur ki, müəllimlər təqdim edilmiş vasitələri dəyərləndirmə bacarığına malik olmalı, lazım olduğu təqdirdə vasitələrin dəyişdirilməsi və ya təkmilləşdirilməsi məsələsini qaldırmaq potensialına malik olmalıdırlar.

**MÖVZU 9: YEKUN REFLEKSIYA**

**Dərs təqdimatları**

Hər bir iştirakçı yekun dərsdə müəyyən bir dərsin icmalını təqdim edir, qiymətləndirmə mexanizmini izah edir və məktəbdaxili qiymətləndirmə vasitələri təqdim edir.

**Yekun müzakirə** təqdimatlar və hazırlanmış qiymətləndirmə vasitələri əsasında aparılır.

**PROQRAMIN QİYMƏTLƏNDİRMƏ MEXANİZMİ**

Proqram üzrə kursun iştirakçılarının təlim nəticələri aşağıdakı mexanizm üzrə qiymətləndiriləcəkdir:






**ƏDƏBİYYAT SİYAHISI:**


1. **Azərbaycan dili kurikulumu**

https://www-northwestcareercollege-edu.translate.goog/blog/different-language-teaching-methods/?_x_tr_sl=az&_x_tr_tl=en&_x_tr_hl=az&_x_tr_pto=wapp

2. Könül Nəhmətova. Yazı işinin təşkili.

https://americanenglish.state.gov/files/ae/resource_files/language_teaching_methods_teachers_handbook.pdf

3. Könül Nəhmətova. Esse: yazı tiplərinə görə növləri. Bakı, "Elm və təhsil", 2023
4. Könül Nəhmətova.Mətnin mövzu v ideyasının müəyyənləşdirilməsi. https://www.arti.edu.az/az/presentation/946-matn-uzra-isin-taskili-matnin-movzu-va-ideyasinin-muayyanlasdirilmasi
5. Könül Nəhmətova. Mətnin problemi və problematikası. https://arti.edu.az/wp-content/uploads/2024/01/M%C9%99tnin-problem-v%C9%99-problematikasi-1.pdf
6. Könül Nəmətova. Mətn üzrə işin təşkili: Abzas – məna vahidi kimi. Mətndə fakt və mülahizələrin fərqləndirilməsi. https://www.arti.edu.az/az/presentation/1018-matn-uzra-isin-taskili-abzas-mana-vahidi-kimi-matnda-fakt-va-mulahizanin-muayyan-edilmasi
7. Könül Nəhmətova. Abzasın strukturu. https://arti.edu.az/2023/01/24/abzasin-strukturu-arqumentl%C9%99sdirm%C9%99-usulu-%C9%99sasinda-abzasin-t%C9%99rtibi/
8. Könül Nəhmətova. Abzasların növləri. https://arti.edu.az/wp-content/uploads/2023/05/Abzaslarin-novl%C9%99ri.pdf
9. Könül Nəhmətova. Mətn və onun tipləri. https://www.arti.edu.az/az/presentation/593-matn-va-onun-tiplari
10. Könül Nəhmətova. Mətn qurmaq strategiyaları. https://arti.edu.az/wp-content/uploads/2024/02/M%C9%99tnin-struktur-novl%C9%99ri-M%C9%99tn-qurmaq-strategiyasinin-alqoritmi-1.pdf